Mədəniyyət.- 2023.- 5 iyul. S. 3.

# Uşaq İncəsənət Festivalının regional mərhələsi başlanıb

## II mərhələ respublikanın 14 şəhəri üzrə 26 məntəqədə keçiriləcək

İyulun 3-də Uşaq İncəsənət Festivalının ikinci – regional mərhələsi başlanıb.

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkil etdiyi, "BP Azerbaijan" şirkətinin baş sponsorluğu ilə keçirilən festivalın regional mərhələsi ölkəmizin 14 iqtisadi-coğrafi rayonunun 14 şəhəri üzrə 26 məntəqədə keçiriləcək.

Birinci mərhələdə iştirak etmiş şəxslər ikinci mərhələyə keçmələri, o cümlədən festivalda iştirakın müəyyən edilən vaxtı və məkanı haqqında məlumatları www.uif.az rəsmi internet portalından əldə edə bilərlər. Bunun üçün www.uif.az saytına daxil olub "II mərhələ" bölməsinə keçid edərək iştirakçının qeydiyyat kodunu və ya şəxsiyyət vəsiqəsinin FİN nömrəsini yazmaq lazımdır.




Festival məkanına gələrkən şəxsiyyətinizi təsdiq edən sənədi və iştirak məlumatlarınızın çap olunmuş formatını özünüzlə gətirməyiniz xahiş olunur.

***

Biləsuvar Regional Mədəniyyət İdarəsinin (RMİ) əhatə etdiyi Biləsuvar, Salyan, Neftçala, Hacıqabul rayonları və Sabirabad RMİ-nin əhatə etdiyi Şirvan şəhəri üzrə iştirakçılar arasında keçirilən II mərhələ bir məntəqədə – Salyan Dövlət Kukla Teatrında reallaşıb.

İyulun 3-də piano ifaçılığı nominasiyası üzrə 48 nəfər iştirakçı istedadını nümayiş etdirib. Bu şəhər və rayonlardan festivalın II mərhələsinə ümumilikdə 206 nəfər vəsiqə qazanıb.

***

Qeyd edək ki, üç turdan ibarət, 21 nominasiyada üç yaş qrupu (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) üzrə keçirilən festivala respublikamızın bütün rayon və şəhərlərindən, o cümlədən Naxçıvan Muxtar Respublikasından 27 minədək iştirakçı müraciət edib. Peşəkar və həvəskar kateqoriyaları üzrə keçirilən festivalın birinci mərhələsi aprel-iyun aylarını əhatə edib. II mərhələ iyul-avqust aylarında reallaşacaq. Bu mərhələnin qalibləri final mərhələsində iştirak hüququ əldə edəcəklər.

Final mərhələsinin sentyabr ayında Bakıda keçirilməsi nəzərdə tutulur. Finalın yeri, tarixi və vaxtı festivalın uif.az portalında, eləcə də kütləvi informasiya vasitələrində elan olunacaq.

Festivalın yekununda ən çox nominasiya üzrə iştirak etmiş və fəallıq göstərmiş şəhər və ya rayon növbəti il festivala ev sahibliyi hüququ qazanacaq.